*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 5, 2025*
*Səh.557-564*

https://doi.org/10.62837/2025.5.557

**BƏSİRƏ ƏZİZƏLİYEVA**
*Filologiya elmləri doktoru, dosent*
*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
besi.azizali@gmail.com

# XX ƏSR URDU POEZİYASININ ƏSAS MÖVZU VƏ İDEYA İSTİQAMƏTLƏRİ

**Açar sözlər:** Urdu ədəbiyyatı, Pakistan, Əhməd Fəraz, Əhməd Nadim Qasmi, Hafiz Calandəri

**Ключевые слова:** Литература урду, Пакистан, Ахмад Фараз, Ахмед Надим Гасми, Хафиз Джаландхари

**Keywords:** Urdu literature, Pakistan, Ahmad Faraz, Ahmad Nadeem Qasmi, Hafeez Jalandhari

Urdu ədəbiyyatı Hindistan və Pakistan xalqlarının əsas ədəbi icmalarından biri kimi təşəkkül tapmışdır. Fars və farsdilli ədəbiyyatın təsiri ilə formalaşmış urdu ədəbiyyatının ilk nümunələrinin XI-XII əsrlərə aid olduğu məlumdur. Əmir Xosrov Dəhləvi urdu poetik ənənələrinin banilərindən hesab olunur. Orta əsrlər urdu ədəbiyyatı o dövrün Şərq bədii düşüncəsinin ümumi tendensiyasına uyğun olaraq məsnəvi, qəzəl, rübai, mərsiyə, qəsidə kimi müxtəlif ədəbi janrlarda inkişaf edirdi.

XX əsr urdu ədəbiyyatının tərəqqisində xüsusi mərhələ kimi seçilir. Yazıçı Premçanın (1880-1936) roman və hekayələri ilə tənqidi realizm metodunun əsası qoyulmuş, romantik ədib Coş Malihabadi (1898-1982) sözügedən ədəbi istiqamətə töhfələr vermiş, yazıçılar Səccad Zahir (1905–1973), Krişan Çandar (1913-1977), Xoca Əhməd Abbas (1914-1987) və Rajendar Sinq Vedinin (1915-?) ədəbi fəaliyyətləri bədii fikrin inkişafına ciddi təsir göstərmişdi. Şairlər Faiz Əhməd Faiz (1911-1984), Məxdum Mohiuddin (1908–1969), Əli Sərdar Cəfri (1913-2000), Əhməd Nadim Qasmi (1916-2006) ənənəvi nəzmdə islahatlar apararaq onu yeni ictimai məzmunla zənginləşdirmişlər.

1930-cu illərdə urdu poeziyasında Miraji (1910-1949), Nur Məhəmməd Rəşid (1910-1977) və digər şairlərin əsərləri ilə formalist cərəyan formalaşmışdı. Ehtişam Hüseyn (1912–1972), Səccad Zahir (1899-1973), Mümtaz Hüseyn (1919-2016) kimi tənqidçilərin əsərləri də nəzəri-estetik fikir tarixində mühüm rol oynamışdır.

XX əsr urdu ədəbiyyatının ideya-məzmun, janr və forma baxımından inkişafı, ədəbiyyatda yeni istiqamətlərin formalaşması, onun fəlsəfi, milli, ictimai mövzularla zənginləşməsində görkəmli şair-filosof Məhəmməd İqbalın (1877-1938) əvəzsiz rolu olmuşdur.

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 5, 2025*
*Səh. 557-564*

XX əsr urdu ədəbiyyatında da klassik ədəbiyyatın ənənələrinə uyğun olaraq poeziya ön planda olmuş, lakin forma və məzmun baxımından müasir düşüncəyə əsaslanmışdır. Məhəmməd İqbal, Faiz Əhməd Faiz, Habba Xatun, Çoş Məlihabadi, Şeyx Ayaz, Məcid Əmcad, Əxtər Hüseyn Cəəfri, Əmir Həmzə Xan Şinvari, Nasir Kazmi, Munir Niyazi, Əhməd Fəraz, Vəzir Ağa, Həbib Calib, Əbdül Qəni Xan, Fəxar Zaman, Layiq Babri, Fəhmidə Riyaz, Zəfər İqbal, Zəhra Nigah, Pərvin Şakir, Ənis Nağı keçən yüzillikdə urdu poeziyasının görkəmli nümayəndələri idi. Bu şairlərin yaradıcılığında müxtəlif mövzulara müraciət olunmuş, azadlıq, dövrün acı həqiqətləri, həyat, dünya, mənəvi çöküşlər, ölüm, cahillik, mənlik, sufizm, sevgi, təbiət, söz azadlığı, müharibə, yoxsulluq kimi çeşidli məsələlər öz əksini tapmışdır.

İctimai-milli, sosial-iqtisadi mövzular, insan hüquqları, söz azadlığı kimi məsələlər Pakistanın məşhur şairi Əhməd Fərazın şeirlərində geniş şəkildə təsadüf olunmaqdadır. Əsl adı Syed Ahmad Shah olan şair yaradıcılığa romantik ruhlu nəzm əsərləriylə başlamışdır. Lakin bir sıra müasirləri kimi Əhməd Fəraz da xalqın üzləşdiyi bir çox problemləri dərindən hiss edirdi. “Fəraz gənc yaşda həyatın acı gerçəkləri ilə çox yaxından maraqlanaraq xalqın problemlərinə dair şeir yazmağa başladı. Çox şirin bir dildən istifadə edərək lirik şeirlər vasitəsiylə inqilabi inanclarını xalqa təqdim edirdi” (2, 213).

Mütərəqqi Yazarlar Birliyinin digər üzvləri kimi Əhməd Fəraz də müstəmləkəçiliyə, siyasi zülmə qarşı çıxmış, sadə insanların hüquqlarının mübarizəsi uğrunda bütün yaradıcılığı boyu əzmlə səy göstərmişdir. Şeirlərindəki siyasi cəhətlərə görə bir müddət həbs olunmuş, Muhammad Zia-ul-Haqın (1924-1988) dönəmində sürgün edilmişdir. Siyasi görüşlərinə görə həyatının müəyyən zamanlarını İngiltərə və Kanadada keçirmişdir. İlk şeirlər kitabı “Tənha Tənha” olan görkəmli şair on üç şeir kitabının müəllifi olmuşdur. İngilis dilinə tərcümə olunmuş bir sıra şeirləri isə “Banished Dreams” – “Sürgündəki yuxular” adı ilə çap edilmişdir.

Əhməd Fəraz yüksək fəaliyyətinə görə bir sıra mükafatlara, eləcə də “Hilale-İmtiyaz” ordeninə layiq görülmüşdür. Şair Pakistanın Ədəbiyyat Akademiyası, Folklor Təşkilatı və Milli Kitab Qurumunun başçısı vəzifəsində də çalışmışdır.

Əhməd Fəraz “Qasid göyərçinlər” şeirində söz azadlığının yoxluğundan şikayət edir. Şairə görə xalqın əziyyətli durumunu ifadə edəcək dillər susdurulmuşdur:

Al qanına
boyanmış
şəhərin küçəsi
xalqın geyim-keçimi,
sabahkı mövsümlərin
və günəşin müjdəçisi olacaq.

Əla, senzuraya məruz qoydunuz

qalın qara sərlövhələri
Sözə qandal vurdunuz,
qələmi ələ keçirdiniz (1, 186)

Əhməd Fəraz nə qədər susdurulmağa çalışılsa da, haqq səsinin bir şəkildə hayqırtıya çevriləcəyini cəsarətlə söyləyə bilir:

Ancaq küçələri süpürən bu küləkləri,
bazarları,
şoseləri,
şəhərdən-şəhərə daşınan
sallaqxanaların qırmızılığını,
təzə qanın ətrini
əngəlləyin görüm!
Axmaqlar!
Göyərçinlər qəfəsdədirsə,
İsmarıcı küləklər çatdıracaq (1, 186-187).

"Səssiz qu quşları" şeirində də Əhməd Fəraz ölkədəki siyasi azadlığın böhranından, zülmə qarşı duranların azlığından doğan kədər hissini ifadə edir. "Bax gör necə olurmuş, qürur satıb rahatlıq almaq" (1, 187) deyən məşhur şair yalnız mübarizə aparmağın çətinliyini və acısını da göstərməyə çalışırdı:

Qoy yorğun gözlər uyusun
və xəyallar puç olsun.
Bax gör dostların
neçə güzəştə getdi,
cəsarətini itirdi,
çox da uzatma söhbəti (1, 187).

Lakin şair haqsız durumda, zülm okeanında çabalayan insanlara yardım etməyə, onların haqq səsini duyurmağa çalışır. Bəzən yorğun və ümidsizcə "nə qədər qan ağlayacaqsan, yoxsulluq yarasına məlhəm olacaqsan" (1, 187) desə də, bir çox müasirlərindən fərqli olaraq sona qədər mübarizə aparacağını bildirir:

Şəhər oxucularla doludur,
harada ədalətdən danışmaq olar?
Zülm okeanları hər yanı bürüyüb
ona qarşı necə döyüşəcəksən?
Sözlə silahlanıb
qabağını necə kəsəcəksən alçaldılmağın Himalay zirvəsini?
Nə qədər vaxt lazımdır
silahları atmaq
və rahat nəfəs almaq üçün (1, 187).

Əhməd Fəraz zülmə səs etməyənləri "susdurulmuş qu quşları" (1, 188) adlandırır, "düşmən bildiyi bulaqlar vadisinə" (1, 188) dönənlərin ağrılara son qoyulmayan zamanda əridiklərini dilə gətirir.

Əhməd Fərazın "Tərk edilmiş" şeiri yoxsulluqdan əziyyət çəkən zümrənin duyğularını ifadə edir. Evinə çörək götürməkdən ötrü qanını belə satmağa hazır olan, bunun bir ticarət deyil, ehtiyac olduğunu söyləməyə çalışan lirik qəhrəmanın ümidləri burada da boşa çıxır:

Bədənimdə
(Onlarca şüşə qan satdığım halda belə)
Neçə tas qanımla
Hər sabah erkəndən
Bir ümid bəsləyərək tərk edirəm evimi
Kim bilir bəlkə də...
Nə var ki, axşamüstü
Əliboş eyni evə dönməyə məcbur olacam.
O evdə ki, səbirsizliklə
Bir ovuc süd və ya bir tikə çörək gözləyən
Qanımın hələ formalaşmamış parçaları
Yolumu gözləyirlər (2, 126).

XX əsr urdu ədəbiyyatının görkəmli nümayəndələrindən biri də Əhməd Nadim Qasmi olmuşdur. O, şair, hekayəçi, redaktor və tənqidçi kimi fəaliyyət göstərmişdir. Cəsarətli jurnalist, köşə yazarı və müxtəlif elmi və ədəbi jurnalların, xüsusən də "Nəqoş" və "Funon"un redaktoru idi. Pakistan hökuməti görkəmli ədibi Tamga-e-Hasan Karkardigi medalı və Sitara-e-İmtiaz ilə təltif etmişdir.

Ədib on altı qısa hekayələr və on şeirlər toplusu ilə urdu ədəbiyyatının inkişafında müstəsna rol oynamışdır. Əhməd Nadim Qasminin əsərlərində ictimai münaqişələr, sinfi mübarizələr, insan və mühit, insanın cəmiyyətdəki yeri, feodalizmin tələləri, məhəbbət, təbiət kimi mövzular üstünlük təşkil edir. Şairin psixoloji incəliklər və özünəməxsus həyat təcrübələri ilə təsvir etdiyi əsərləri canlılığı və səmimiyyəti ilə diqqəti cəlb edir.

Əhməd Nadim Qasmi şeirlərində kənd həyatı və onun çətinliklərinə diqqət yetirir, müstəmləkəçilik və post-müstəmləkəçiliyi tənqid edir, sosial ədalət və bərabərliyə çağırırdı. "Sərvətin bərabər şəkildə bölüşdürülməsinin tərəfdarı olmaq və insan hüquqlarının pozulmasına və yoxsulluğa qarşı çıxmaq onun təcrid olunmuşları yüksəltməyə sadiqliyini vurğulayır. Onun kütlələrin təkmilləşməsinə can atan siyasi qüvvələrlə həmrəyliyi ictimai tərəqqi və ədalət müdafiəçisi mövqeyini daha da möhkəmləndirir" (4, s. 58).

Şair şeirlərində məhəbbət, aşiqin gözəlliyi, təbiətin vəsfi, kənd təbiəti, kənd həyatının reallıqları və problemlərindən bəhs edirdi. Ədib poetik həyatına romantik şeirlə başlamışdır. "Rim Chimin Qatahı" adlı ilk şerində gözəllik, eşq və həyat

mövzularını qələmə almış, romantik duyğularını ifadə etmişdir. “Nadimin doğulduğu Pəncab bölgəsi bu Qatahlarda xüsusi bir yer kimi ön plana çıxdı. Bu kitab Nadimin poetik şəxsiyyətinin güzgüsüdür” (4, s. 68).

Şair “Cəlal-ü-Cəmal” adlı şeirlər kitabında da mövzularını davam etdirmiş, yenə də kənd həyatı, eyni zamanda, kənddəki gənclərin eşq macəralarının bədii əksini yaratmışdır. Romantik duyğuların daha da dərinləşərək fəlsəfi çalar qazandığı qəzəllər buna parlaq nümunələrdir.

Lakin şairin əsərləri yalnız romantik duyğuların ifadəsi və kənd həyatının təsvirləri ilə məhdudlaşmır. Şair sonrakı “Şovla-e-gül” kitabında kənd təbiətinin ecazkar gözəlliyinin çevrəsindəki insanların məhrumiyyətini də dilə gətirmişdir.

“Dasht-e-vafa” toplusunda isə Əhməd Nadim Qasminin şeirlərinin daha çox ictimai məzmun kəsb etdiyini müşahidə edirik. İnsanlığı və insanların dəyərini ön plana çəkən şairin sözügedən əsərlərdə gözəl bir dünya yaratmaq arzularını görürük. Onun dünyasında məhəbbətə, aşiqin gözəlliyinə, təbiət gözəlliyinə, kənd təbiətinə, kənd cəmiyyətinin zülm və reallığına, insanlar və onların əməllərinə, zəhmətinə, insanlığına üstünlük verilmişdir.

XX əsr urdu ədəbiyyatının inkişafında Pakistan Milli Himninin müəllifi Hafiz Calandərini də xüsusi vurğulamağa ehtiyac vardır. Qeyd etmək lazımdır ki, 1950-ci illərdə Hafiz Calandərinin sözləri milli himn kimi qəbul edilməzdən çox əvvəl Pakistannın Lahor şəhərində yaşayan şair Tilok Çand Mahroomun oğlu Caqannath Azad tərəfindən yazılmış bir himn var idi. 1947-ci ildə Pakistanın yaradılmasından üç gün əvvəl Azaddan himni yazmağı tələb etmişdilər.

Hafiz Calandərinin ilk şeirlər toplusu “Nəqma-e-Zar” 1935-ci ildə nəşr olunmuşdur. Şair 1947-ci ildə Pakistan dövləti yarandıqdan sonra Lahora köçmüşdü.

Şair, publisist, ictimai xadim kimi fəaliyyət göstərmiş H.Calandəri qəzəl, müləmmə, müsəlləs, qitə, təmsil kimi müxtəlif janrlarda yazdığı əsərləri, Pakistan ədəbi-mədəni və ictimai mühtindəki rolu ilə seçilmişdir.

Ölkəsini pak torpaq kimi sevən şair Allahın və güclü iradəyə sahib həmvətənlərinin fəaliyyəti ilə azadlığa və müstəqilliyə nail olduqlarını dilə gətirir:

Sağ ol, ey pak torpaq!
Şad ol, gözəlliklər yurdu!
Sən ey ali iradənin rəmzi,
Ey Pakistan torpağı!
Sağ ol, ey imanın mərkəzi!

Şair millət, olkə və dövlətin yalnız birlikdə xoşbəxt və əbədi olacağını söyləyir:

Bu pak yurdun nizamı
Xalqın qardaşlıq gücüdür.
Millət, ölkə və dövlət
Əbədiyyən parlasın,

Sağ ol, muradımızın ünvanı! (1, 39)

Görkəmli ədib keçmişi ilə öyünür, bu gününü inkişafın açarı hesab edir və gələcəyə böyük ümidlərlə baxır:

Ayparalı və ulduzlu bayraq
Tərəqqi və kamilliyə yol açır,
Keçmişin tərcümanıdır,
İndimizin şöhrəti,
Gələcəyimizə ilhamdır,
Qadir Allahın kölgəsi! (1, 39)

H.Calandəri 1948-ci ildə Hindistana qarşı müharibədə iştirak etmiş, Kəşmirin azadlığı uğrunda həm fiziki olaraq mübarizə aparmış, həm də insanları ruhlandıran vətənpərvərlik mahnılarını yazmışdır. Şair "Vatan Hamara Azad Kəşmir" adlı Kəşmir Himninin də müəllifi olmuşdur. 1965-ci ildə Hind-Pakistan müharibəsi zamanı da bir çox vətənpərvər şeirləri ilə diqqəti cəlb etmişdir.

H.Calandərinin İslamın şanlı tarixinindən bəhs edən "Şahnamə-i İslam" şeiri Şərq ədəbiyyatı tarixinin mühüm örnəklərindən biri kimi qəbul olunmuş və şairə böyük şöhrət qazandırmışdır.

Göründüyü kimi, XX əsr urdu ədəbiyyatı Pakistanın zəngin bədii irsində xüsusi mərhələ kimi özünəməxsus yer tutur. Bu dövrə kimi ədəbiyyatda poeziya üstünlük təşkil edirdisə, sözügedən yüzillikdə nəsr əsərləri də geniş şəkildə yazılır və nəşr olunurdu. Lakin, bununla belə, poeziya öz rolunu mühafizə etmiş, bütün əsr boyu müxtəlif janr və məzmunda çox görkəmli şairlərin fəaliyyətləri ilə davam etmişdir. Nəzm əsərlərinin ideya-mövzu çevrəsi daha da genişlənmiş, klassik ənənələrdən gələn məhəbbət mövzusu ilə yanaşı, ailə-məişət, ictimai, ədəbi-fəlsəfi, sosial mövzular da poeziyaya yol tapmışdır. Bu da XX əsr urdu şeirinin daim inkişafda olduğunu göstərən mühüm faktlardandır.

## Ədəbiyyat

1. Dünya ədəbiyyatı dərgisi. Pakistan. Bakı, Bədii Tərcümə və ədəbi əlaqələr mərkəzinin nəşri, 2021.
2. Modern Pakistan edebiyatı, İslamabad, Masud Publishers, 1983.
3. Daudpota Umar Muhammad. The İnfluence of Arabic Poetry on the Development of Persian Poetry, Bombay, 1934.
4. Hafsa Akhtar. Ahmad Nadeem Qasmı's Poet: An Analysıs Of Mıscellaneous Aspects. Şarkiyat Mecmuası, sayı 32, 2018-1. pp. 57-73
5. Sadiq Muhammad. A History of Urdu Literature. Karachi, Oxford University Press, 1985.

## Xülasə

Qədim ənənələri olan, fars və farsdilli ədəbiyyatın təsiri ilə formalaşmış urdu poeziyası XX əsrdə də mühüm tərəqqi yolu keçmişdir. Poeziya məsnəvi, qəzəl, rübai, mərsyiə, qəsidə kimi müxtəlif ədəbi janrlarda inkişaf edirdi. Lakin mövzu və məzmun baxımından müasir düşüncəyə əsaslanmışdır. Məhəmməd İqbal, Faiz Əhməd Faiz, Habba Xatun, Çoş Məlihabadi, Şeyx Ayaz, Məcid Əmcad, Əxtər Hüseyn Cəəfri, Əmir Həmzə Xan Şinvari, Nasir Kazmi, Munir Niyazi, Əhməd Fəraz, Vəzir Ağa, Həbib Calib, Əbdül Qəni Xan, Fəxar Zaman, Layiq Babri, Fəhmidə Riyaz, Zəfər İqbal, Zəhra Nigah, Pərvin Şakir, Ənis Nağı keçən yüzillikdə urdu poeziyasının görkəmli nümayəndələri idi. Bu şairlərin yaradıcılığında müxtəlif mövzulara müraciət olunmuş, azadlıq, dövrün acı həqiqətləri, həyat, dünya, mənəvi çöküşlər, ölüm, cahillik, mənlik, sufizm, sevgi, təbiət, söz azadlığı, müharibə, yoxsulluq kimi çeşidli məsələlər öz əksini tapmışdır. İctimai-milli, sosial-iqtisadi mövzular, insan hüquqları, söz azadlığı kimi məsələlər məşhur şair Əhməd Fərazın şeirlərində mühüm yer tutur. Şair, hekayəçi, redaktor və tənqidçi kimi fəaliyyət göstərmiş Əhməd Nadim Qasmi də XX əsr urdu poeziyasının görkəmli nümayəndələrindən biri olmuşdur. Əhməd Nadim Qasmi şeirlərində məhəbbət mövzusu ilə yanaşı, kənd həyatı və onun çətinliklərinə diqqət yetirir, müstəmləkəçilik və post-müstəmləkəçiliyi tənqid edirdi. XX əsr urdu şeirinin inkişafında Pakistan Milli Himninin müəllifi Hafiz Calandərinin xüsusi yeri vardır.

**BASIRA AZIZALIYEVA**

**THE MAIN THEMES AND IDEAS OF 20TH CENTURY URDU POETRY**

**SUMMARY**

Urdu poetry, which has an ancient tradition and was influenced by Persian and Persian-language literature, also made significant progress in the 20th century. The poetry developed in various literary genres such as masnavi, ghazal, ruba'i, elegy and qasida. However, it is based on modern thinking in terms of themes and content. In Urdu literature of the 20th century, according to the traditions of classical literature, poetry was at the forefront, but it was based on modern thought in terms of form and content. Muhammad Iqbal, Faiz Ahmed Faiz, Habba Khatun, Chosh Malihabadi, Sheikh Ayaz, Majid Amjad, Akhtar Hussain Jaafri, Amir Hamza Khan Shinwari, Nasir Kazmi, Munir Niyazi, Ahmad Faraz, Wazir Agha, Habib Jalib, Abdul Gani Khan, Fakhar Zaman, Layiq Babri, Fahmidah Riyaz, Zafar Iqbal, Zahra Nigah, Parveen Shakir, Anis Nagy were prominent representatives of Urdu poetry in the last century. In the works of these poets, various topics were addressed, such as freedom, bitter truths of the time, life, world, spiritual collapse, death, ignorance, self, Sufism, love, nature, freedom of speech, war, poverty. Issues such as socio-national, socio-economic issues, human rights, freedom of speech occupy an important place in the poems of the famous poet Ahmad Faraz. Ahmad Nadeem Qasmi, who worked as a poet, storyteller, editor and critic, was also one of the

prominent representatives of Urdu poetry of the 20th century. Apart from the theme of love, Ahmad Nadeem Qasmi's poems focused on rural life and its difficulties and also criticized colonialism and post-colonialism. Hafeez Jalandhari, the author of the National Anthem of Pakistan, holds a special place in the development of Urdu poetry of the 20th century.

**Басира Азизалиева**

**Основные темы и идеи поэзии урду XX века**

**Резюме**

Поэзия урду, имеющая древние традиции и сформировавшаяся под влиянием персидской и персоязычной литературы, также достигла значительного прогресса в XX веке. Поэзия развивалась в различных литературных жанрах, таких как маснави, газель, рубаи, элегия и касыда. Однако она основана на современном мышлении с точки зрения тематики и содержания. В литературе урду XX века, согласно традициям классической литературы, на переднем плане стояла поэзия, но по форме и содержанию она опиралась на современную мысль. Мухаммад Икбал, Фаиз Ахмед Фаиз, Хабба Хатун, Чош Малихабади, Шейх Аяз, Маджид Амджад, Ахтар Хусейн Джафри, Амир Хамза Хан Шинвари, Насир Казми, Мунир Ниязи, Ахмад Фараз, Вазир Ага, Хабиб Джалиб, Абдул Гани Хан, Фаххар Заман, Лайик Бабри, Фахмида Рияз, Зафар Икбал, Захра Нига, Парвин Шакир, Анис Надь были яркими представителями поэзии урду прошлого века. В произведениях этих поэтов затрагивались различные темы, такие как свобода, горькие истины времени, жизнь, мир, духовный крах, смерть, невежество, самость, суфизм, любовь, природа, свобода слова, война, нищета. Такие вопросы, как социально-национальные, социально-экономические вопросы, права человека, свобода слова занимают важное место в стихах известного поэта Ахмеда Фараза. Ахмед Надим Касми, работавший как поэт, рассказчик, редактор и критик, также был одним из выдающихся представителей поэзии урду XX века. Помимо темы любви, стихи Ахмеда Надима Касми были сосредоточены на сельской жизни и ее трудностях, а также критиковали колониализм и постколониализм. Хафиз Джаландари, автор Национального гимна Пакистана, занимает особое место в развитии поэзии урду XX века

**Rəyçi:** Filologiya elmləri doktoru, professor Bədirxan Əhmədli